# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ BÜLLETENİ

FEVRAL 2026

# MÜNDƏRİCAT


3 Bakıda Azərbaycan Hakimlərinin II Forumunun açılış mərasimi keçirilib

6 Hakimlərin II Forumu panel müzakirələrlə davam etdirilib

8 Hakimlərin II Forumu 2-ci panel müzakirələrlə davam etdirilib

10 Azərbaycan Hakimlərinin II Forumu “Cinayət mühakimə icraatının aktual məsələləri və müasir çağırışlar” mövzusunda üçüncü panel müzakirəsi ilə yekunlaşıb

12 “Ədalət mühakiməsi hüququ” adlı dərs vəsaiti çap olunub

13 Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

14 Hakimlərin Seçki Komitəsinin məlumatı

17 Almaniyada inzibati məhkəmələr üzrə təcrübə proqramı uğurla başa çatmışdır

18 Məhkəmə-Hüquq Şurasının iclasında bir sıra məsələlər müzakirə edilib

19 Qərarlar

28 Hüquqi aktlar

31 Dünyada Hüquq

## *Bakıda Azərbaycan Hakimlərinin II Forumunun açılış mərasimi keçirilib*



Bakıda Azərbaycan Hakimlərinin II Forumunun açılış mərasimi keçirilib.

500-dək məhkəmə hakiminin, Məhkəmə-Hüquq Şurası üzvlərinin, həmçinin dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi forumun məqsədi hüquq ictimaiyyətini və cəmiyyəti ölkəmizdə gedən məhkəmə-hüquq islahatları barədə məlumatlandırmaqdır.

Forumda əvvəlcə məhkəmə sahəsində 2025-ci il ərzində görülən işlərə dair video-çarx nümayiş etdirilib.

Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev açılış nitqində bildirib ki, bugünkü forum Azərbaycan məhkəmə hakimiyyəti üçün xüsusi məna və əhəmiyyət daşıyır. Müasir dövrdə məhkəmə hakimiyyətinin qarşısında duran vəzifələr təkcə hüququ tətbiq etməklə məhdudlaşmır. Hakimlər cəmiyyətin ədalətə olan inamının əsas təminatçısıdırlar. Qeyd edilib ki, bu inam isə yalnız peşəkarlıq, obyektivlik və qanunun aliliyi prinsiplərinə sadiqliklə deyil, eyni zamanda, institusional güc, həmrəylik və davamlı inkişafla möhkəmlənir.










Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında bildirib ki, birinci forumdan ötən dövr ərzində ölkəmizdə bir sıra əlamətdar hadisələr baş verib, inkişaf dinamikası uğurla davam etdirilib, genişmiqyaslı quruculuq və bərpa işləri aparılıb, bütün sahələrdə tərəqqiyə nail olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəçiliyində sistemli islahatlar həyata keçirilib, milli maraqlara əsaslanan ardıcıl siyasət təmin olunub, Azərbaycanın beynəlxalq aləmdə mövqeyi əhəmiyyətli dərəcədə möhkəmlənib.

Qeyd edilib ki, 2025-ci il məhkəmə hakimiyyəti üçün də kifayət qədər məhsuldar və uğurlu olub. Vurğulanıb ki, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində qanunvericilik və institusional islahatlar aparılıb, bu islahatların beynəlxalq aləmdə təbliği məqsədilə mühüm tədbirlər həyata keçirilib. Vahid məhkəmə təcrübəsinin formalaşdırılması, hüquqi məsələlərin həllində yanaşmanın sabitliyinin və mövqelərin proqnozlaşdırılan olmasının təmin edilməsi istiqamətində işlər davam etdirilib.






Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev isə çıxışında qeyd edib ki, Konstitusion şərh hüquqi müəyyənliyin və qanunun aliliyinin təmin edilməsində mühüm rol oynayır. Konstitusiya dövlət hakimiyyətinin sərhədlərini müəyyən etməklə yanaşı, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat verir və ictimai münasibətlərin tənzimlənməsinin əsas istiqamətlərini müəyyənləşdirir. Bu baxımdan Konstitusiyada təsbit edilmiş təməl prinsiplərin düzgün anlaşılması və tətbiqi xüsusi əhəmiyyət daşıyır. Açılış mərasiminin sonunda Azərbaycan Hakimlərinin II Forumu çərçivəsində məhkəmə-





hüquq sistemində uzunmüddətli səmərəli fəaliyyətinə, həmçinin çıxardıqları məhkəmə qərarlarının sabitlik göstəricilərinə görə bir qrup hakim təltif edilib.

Sonra tədbir konkret mövzular üzrə panel müzakirələrlə davam etdirilib.



# Hakimlərin II Forumu panel müzakirələrlə davam etdirilib




Bakıda Azərbaycan Hakimlərinin II Forumu çərçivəsində “Rəqəmsallaşma və süni intellektin tətbiqi” adlı birinci panel müzakirəsi keçirilib.

Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurov bildirib ki, bu gün məhkəmə sistemində süni intellektin tətbiqi məsələsi yalnız texnologiya məsələsi deyil, artıq institusional məsuliyyət məsələsidir. O, hazırda “Elektron məhkəmə” sisteminin təkmilləşdirilməsi üzrə işlərin yekunlaşmaq üzrə olduğunu qeyd edib. Vurğulanıb ki, süni intellekt hakimi əvəz etmir, onun qərarlarını daha keyfiyyətli və əsaslandırılmış edir, hakimin analitik imkanlarını genişləndirir. Texnologiya dəyişir, amma ədalətin müəllifi dəyişmir.

Ali Məhkəmənin Mülki kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev vurğulayıb ki, tam elektron icraata keçid regionlarda yaşayan vətəndaşların məhkəmələrə fiziki müraciət ehtiyacını azaldacaq, eyni zamanda hakimlər arasında iş yükünün daha balanslı bölüşdürülməsinə şərait yaradacaq. O, qeyd edib ki, məhkəmə qərarlarının və icraat materiallarının vahid elektron məlumat bazasında toplanması süni intellekt texnologiyalarının tətbiqini mümkün edəcək.

Ali Məhkəmənin Kommersiya kollegiyasının sədri Kəmalə Abiyeva deyib ki, 2018-ci ildən başlayaraq elektron icraat mexanizmləri ilk dəfə sistemli şəkildə tətbiq olunmağa başlanıb və bu proses mərhələli şəkildə genişləndirilib. Bildirilib ki, elektronlaşma məhkəmə icraatının sürətləndirilməsi, işlərə baxılma müddətinin azaldılması və vətəndaşların məhkəməyə müraciət xərclərinin minimuma endirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ədliyyə nazirinin müavini Toğrul Hüseynov bildirib ki, elektron icra informasiya sistemi vasitəsilə qərarların icrası sürətlənib, məlumat mübadiləsi operativləşib və şəffaflıq təmin olunub. Onun sözlərinə görə, 2025-ci ilin mayında qüvvəyə minmiş qanunvericilik dəyişiklikləri icra sənədlərinin yalnız elektron qaydada qəbulunu və icra prosesinin tam rəqəmsal əsasda aparılmasını mümkün edib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədovun sözlərinə görə, yeni texnologiyalar iqtisadiyyatın ənənəvi sektorları ilə müqayisədə üç dəfə daha yüksək artım tempinə malikdir: "Buna görə də dünya dövlətləri bu istiqamətdə irəliləyişi təmin etmək üçün müxtəlif imkanlar formalaşdırır, insan kapitalını gücləndirir və infrastruktur layihələrinə ciddi investisiyalar yatırır. Azərbaycanda son illərdə həyata keçirilən islahatlar da məhz texnoloji inkişaf sıçrayışı üçün baza formalaşdırmağa xidmət edir".

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev çıxışında bildirib ki, elektron prokurorluq informasiya sisteminin tətbiqi cinayət təqibindən kənar icraatların səmərəliliyinin artırılmasında mühüm rol oynayır və cinayətkarlıq vəziyyətinin real vaxt rejimində təhlilinə imkan yaradır.

Daha sonra Azərbaycan Hakimlər İttifaqının sədr müavini Ələddin Cəfərov Azərbaycan Hakimlər İttifaqının illik hesabatını təqdim edib. Onun sözlərinə görə, hakimlərin peşə nüfuzunun qorunması, onların hüquqlarının müdafiəsi və peşəkar inkişafının təmin edilməsi İttifaqın fəaliyyətində prioritet istiqamətlərdən biridir. O qeyd edib ki, hakimlərin nüfuzunun müdafiəsi istiqamətində görülən tədbirlər 2026-cı il üçün təsdiqlənmiş fəaliyyət planında da öz əksini tapıb. Bu tədbirlər sistemli və məqsədyönlü şəkildə həyata keçiriləcək.

# Hakimlərin II Forumu 2-ci panel müzakirələrlə davam etdirilib




Bakıda təşkil edilən Azərbaycan Hakimlərinin II Forumu çərçivəsində "İnzibati orqanların fəaliyyətində məhkəmənin rolu: təkrarlanan işlər, inzibati praktikanın yenilənməsi (dəyişdirilməsi), inzibati praktikada bərabər yanaşma və etimadın qorunması" mövzusunda ikinci panel müzakirəsi keçirilib.

Panel müzakirəsində çıxış edən Ali Məhkəmənin İnzibati kollegiyasının sədri Xəqani Məmmədov qeyd edib ki, vətəndaşlar etimad hüququnun qorunması daxilində inzibati orqanlarda özlərinin məhkəmə mübahisəsinə çevrilməmiş işləri üzrə inzibati orqanlardan vahid məhkəmə təcrübəsinə uyğun davranmalarını tələb edə bilərlər. Qeyd edilib ki, inzibati orqanların davranışlarında məhkəmə təcrübəsinin izlənilməsi və nəzərə alınmasının məcburiliyi ilə bağlı normativ əsaslar olmalıdır. İnzibati-Prosessual Məcəlləyə təklif edilən əlavə (yeni 120-1-ci maddə) də nəzərə alınmaqla, yeni tənzimləmə inzibati orqanların məsuliyyətlərinin artırılmasına yönəlib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev bildirib ki, sosial mübahisələrin mümkün qədər məhkəməyə çatdırılmadan, preventiv və əsaslandırılmış şəkildə həll edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əsas meyarlarından biridir. Onun sözlərinə görə, son illər diqqət qərarların əsaslandırılmasına, prosedurların ilkin mərhələdə düzgün aparılmasına və inzibati izahat mexanizmlərinin gücləndirilməsinə yönəldilib. Məqsəd vətəndaşların illərlə məhkəmə proseslərini gözləməsinin qarşısını almaq, həmçinin məsələlərin mümkün qədər qısa müddətdə həllini təmin etməkdir.

Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayeva iqtisadi münasibətlərin tənzimlənməsində rəqəmsallaşmanın, şəffaflığın və çevik hüquqi mexanizmlərin mühüm rolunu vurğulayıb. Onun sözlərinə görə, iqtisadi münasibətlərin iştirakçıları, o cümlədən sahibkarlıq subyektləri, özünəməxsus xüsusiyyətlərə malikdir və bu münasibətlərin dinamikasında baş verə biləcək pozuntu və sui-istifadə hallarının qarşısının alınması üçün effektiv nəzarət mexanizmləri zəruridir.

Dövlət Gömrük Komitəsi sədrinin müavini Güloğlan Muradlı çıxışında qeyd edib ki, ticarət dövriyyəsinin artması fonunda hüquq pozuntularının sayı da yüksəlməkdədir: "Bu halların qarşısının alınması məqsədilə Komitə tərəfindən institusional və preventiv tədbirlər həyata keçirilir. Gömrük sahəsində yaranan inzibati-hüquqi mübahisələrin məhkəməyə qədər həllini təmin etmək üçün komitənin mərkəzi aparatında müvafiq icraat və struktur bölmələri yaradılıb".

Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin İdarə Heyətinin sədri Nigar Alimova bildirib ki, son illər daşınmaz əmlakla bağlı məhkəmə mübahisələrinin əhəmiyyətli hissəsi sənədlərin tamlığı və hüquqi əsasların düzgün formalaşdırılması ilə bağlıdır. Onun sözlərinə görə, məhkəmə təcrübəsində formalaşmış yanaşmaya əsasən, istismar olunan obyekt üzrə mənzil və ya qeyri-yaşayış sahəsinin tanınması üçün müvafiq hüquqi və texniki sənədlərin mövcudluğu əsas şərt hesab edilir.

# Azərbaycan Hakimlərinin II Forumu "Cinayət mühakimə icraatının aktual məsələləri və müasir çağırışlar" mövzusunda üçüncü panel müzakirəsi ilə yekunlaşıb




Bakıda təşkil edilən Azərbaycan Hakimlərinin II Forumu çərçivəsində "Cinayət mühakimə icraatının aktual məsələləri və müasir çağırışlar" mövzusunda üçüncü panel müzakirəsi keçirilib.

Panel müzakirəsində çıxış edən Ali Məhkəmənin Cinayət kollegiyasının hakimi Rəşad Abdulov bildirib ki, cinayət mühakimə icraatı hər mərhələdə ciddi peşəkarlıq və yüksək məsuliyyət tələb edir. Onun sözlərinə görə, bu məsuliyyətin ölçüsü hakimlər üçün əslində sadədir: cəmiyyət məhkəmə qərarlarının hüquqi konstruksiyasını deyil, yalnız nəticəni qiymətləndirir. Vətəndaşlar üçün əsas meyar ədalətin olub-olmamasıdır. Ədalətin olduğu yerdə məhkəmə güclü olur, olmadığı halda isə heç bir mükəmməl və qüsursuz məhkəmə aktı belə etimadı bərpa edə bilmir.

Cinayət kollegiyasının sədri Hafiz Nəsibov çıxışında qeyd edib ki, cinayət prosesinin nəticələrinin həm proses iştirakçıları, həm də cəmiyyət üçün etimad doğurması yalnız sübutların qanunla müəyyən edilmiş qaydada əldə olunması və obyektiv qiymətləndirilməsi ilə mümkündür. Onun sözlərinə görə, cinayət təqibinin məqsədlərinə nail olunması tərəflərin hüquqlarına tam əməl edilməsi ilə birbaşa bağlıdır. Vurğulanıb ki, cinayət prosesinin mərhələli quruluşu təsadüfi deyil və hər bir növbəti mərhələ əvvəlkində yol verilmiş pozuntuların qarşısını alan hüquqi filtr rolunu oynayır. Bu mexanizmin məqsədi pozuntularla aparılmış istintaq hərəkətlərinin və qanunsuz əldə olunmuş sübutların prosesin sonrakı mərhələlərinə keçməsinə imkan verməməkdir.

Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev bildirib ki, vurulmuş ziyanın ödənilməsi, fiziki və hüquqi şəxslərin qanunla qorunan mənafelərinin müdafiəsi ölkəmizdə hüquq-mühafizə siyasətinin prioritet istiqamətlərindəndir. Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi istintaq olunan cinayət işləri üzrə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi məqsədilə müstəntiqlərin sorğuları əsasında cinayət aktivlərinin müəyyən olunması istiqamətində səmərəli iş aparır. Əmlakların aşkar olunması ilə bağlı vəzifələrin prokurorluğun ixtisaslaşmış idarəsi tərəfindən yerinə yetirilməsi bu sahədə işin effektivliyinin artırılmasına səbəb olub. Belə ki, cinayət işləri üzrə aşkar olunan aktivlərin sayı əhəmiyyətli dərəcədə artıb, eyni zamanda müstəntiqlər aktivlərin aşkar olunması kimi əlavə iş yükündən azad olduqları üçün digər prosessual vəzifələrini daha keyfiyyətlə yerinə yetirməyə başlayıblar. Qeyd edilib ki, görülən işlərlə yanaşı, prokurorluq orqanları tərəfindən aktivlərin bərpası sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq da həyata keçirilir. Təcrübədə uğurla sınaqdan keçmiş müsadirənin digər növlərinin milli qanunvericiliyə implementasiyası məqsədilə mütərəqqi beynəlxalq təcrübə öyrənilir.

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Əbülfət Rzayev bildirib ki, cinayət prosesinin bütün mərhələlərində, xüsusilə ibtidai araşdırma zamanı sübutların qanuni əsaslarla əldə edilməsi və qiymətləndirilməsi tərəflərin hüquqlarının təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Onun sözlərinə görə, ibtidai araşdırma başa çatdıqdan sonra proses iştirakçılarının iş materialları ilə tanış olmaq hüququ təmin edilməli, bu zaman şahidlərin və əməliyyat tədbirlərində iştirak etmiş şəxslərin təhlükəsizliyi nəzərə alınmalıdır. Çıxışda qeyd edilib ki, cinayət prosesinin iştirakçılarına təqdim edilən materiallarda əməliyyat-axtarış fəaliyyətində iştirak etmiş şəxslərin şəxsiyyətinə dair məlumatların açıqlanması ciddi risklər yarada bilər.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəis müavini Oqtay Məmmədov qeyd edib ki, penitensiar müəssisələrdə məhkumların və həbs edilmiş şəxslərin hüquq və imtiyazları genişləndirilir, saxlanma şəraiti, qida və tibbi təminat yaxşılaşdırılır. İdarəetmə və təşkilatçılıq sahəsində yeni innovativ texnologiyalar tətbiq edilir, beynəlxalq tələblərə uyğun müasirləşmə aparılır və digər ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda məhkumların və həbs edilmiş şəxslərin müşayiəti zamanı risklərin azaldılması, onların məhkəmə iclaslarında iştirakının operativ təmin edilməsi məqsədilə bütün istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində müasir tipli onlayn məhkəmə sistemi quraşdırılaraq istifadəyə verilib. Məhkumların islah prosesində iştirak etmək, habelə müstəqil monitorinqlər aparmaq məqsədilə beynəlxalq təşkilatların və yerli vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin penitensiar müəssisələrə baş çəkməsi üçün müvafiq şərait yaradılıb.

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova çıxışında bildirib ki, cinayət təqibinin ilkin mərhələsində müdafiə hüququnun real təmin olunmaması ciddi problemlər yaradır. Onun sözlərinə görə, şəxslərin şahid qismində dindirilməsi zamanı müdafiəsiz sorğu-sual edilməsi və həmin izahatlardan sonradan sübut kimi istifadə olunması yolverilməzdir. Müdafiə hüququ formal statusdan deyil, faktiki vəziyyətdən irəli gəlməlidir. O, həmçinin vurğulayıb ki, həbs-qətimkan tədbirinin faktiki avtomatlaşdırılması, ağır və xüsusilə ağır cinayətlər üzrə alternativ qətimkan tədbirlərinin kifayət qədər tətbiq edilməməsi fərdiləşdirmə prinsipinə uyğun deyil. Bildirilib ki, müdafiə hüququnun effektiv təmin olunması cinayət mühakiməsinin ədalətliliyinin əsas şərtidir və bu sahədə institusional yanaşmanın gücləndirilməsi zəruridir.

## “Ədalət mühakiməsi hüququ” adlı dərs vəsaiti çap olunub




Milli Aviasiya Akademiyasının dəstəyi ilə hüquq elmləri doktoru, professor Firuzə Abbasova, hüquq elmləri doktoru, professor Ayxan Rüstəmzadə və hüquq elmləri doktoru Fərdin Xəlilovun müəllifliyi ilə “Ədalət mühakiməsi hüququ” adlı vəsait işıq üzü görüb.

Vəsait Azərbaycan Respublikasında ədalət mühakiməsinin nəzəri və praktiki aspektlərinə həsr olunub. Kitabda ədalət mühakiməsinin anlayışı, müasir məhkəmə-hüquq islahatları, məhkəmələrin fəaliyyətində informasiya texnologiyalarının, rəqəmsallaşmanın və süni intellekt sistemlərinin perspektivləri və ədalət mühakiməsinin həyata keçirilməsinə dair əsas müddəalar təqdim olunub.

Vəsaitdə həmçinin ədalətli məhkəmə araşdırması hüququnun institusional və prosessual təminatları, Azərbaycan Respublikasının məhkəmə sistemi, hakimlərin və ədalət mühakiməsinin digər iştirakçılarının hüquqi statusu, Məhkəmə-Hüquq Şurasının fəaliyyəti və ədalət mühakiməsinin etik aspektləri oxucuya anlaşılan dildə izah edilib.
Dərs vəsaitindən tələbələrlə yanaşı, hakimlər, prokurorluq və digər hüquq-mühafizə orqanları əməkdaşları, vəkillər, elmi tədqiqatçılar, eləcə də ədalət mühakiməsi ilə maraqlanan digər şəxslər faydalana bilərlər.

Kitabın məsləhətçisi Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Kərəm Mansurov, rəyçiləri isə Məhkəmə-Hüquq Şurasının üzvü, hüquq elmləri doktoru, professor Azər Cəfərov və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri, hüquq elmləri doktoru, professor Fərhad Abdullayevdir.

Vəsait hüquq ictimaiyyətinə ilk dəfə 20 fevral 2026-cı il tarixində baş tutmuş Azərbaycan Hakimlərinin II Forumunda təqdim edilib.

# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib



2026-cı ilin fevral 17-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, hazırda yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesləri şəffaf və təkmilləşdirilmiş mərhələlər üzrə davam etməkdədir.

İclasda Hakimlərin Seçki Komitəsinin müraciətinə də baxılıb. Komitənin sədri Vidadi Cəfərov hakim vəzifəsinə namizədlərin seçimi prosesi barədə ətraflı məlumat təqdim edib.

Sonra müsabiqəni uğurla başa vurmuş 34 hakimliyə namizədlə fərdi söhbətlər aparılıb, onlara tövsiyələr verilib və yekunda birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunmaları üçün təkliflərin hazırlanması qərara alınıb.

Həmçinin Məhkəmə-Hüquq Şurasının Aparatı tərəfindən məhkəmə fəaliyyətinə dair hazırlanmış layihələr ətrafında müzakirələr aparılıb. Hakimin xidməti vəsiqəsinin və Məhkəmə-Hüquq Şurasının rəsmi embleminin təsviri və nümunələri təsdiq edilib.

# Hakimlərin Seçki Komitəsinin məlumatı



2026-cı il fevral ayının 13-də Hakimlərin Seçki Komitəsinin iclası keçirilmişdir.

İclasda qeyd olunub ki, test və yazılı imtahanlardan müvəffəqiyyətlə keçmiş hakimliyə namizədlərlə Hakimlərin Seçki Komitəsi tərəfindən yeni qaydalara uyğun olaraq ilk dəfə müsahibələr keçirilmişdir.

Müsahibədə namizədlərin hüquq sahəsində nəzəri və praktiki biliklərini, habelə məntiqi nəticələr çıxarmaq qabiliyyətini müəyyən edən suallar verilmiş, biliklərinin tətbiqi, özünü təqdimetmə bacarıqları, ümumi dünyagörüşü, təmkinliliyi, fikir və rəyini ifadə etmək, analitik düşünmək qabiliyyəti yoxlanılmış, hakim işləmək üçün zəruri olan keyfiyyətlərə yiyələnməsi Komitə tərəfindən qiymətləndirilərək 34 hakimliyə namizəd müsahibədə müvəffəqiyyət qazanmış, onların hakim vəzifəsinə uyğunluğu, o cümlədən ixtisaslaşdırma haqqında rəylər Məhkəmə-Hüquq Şurasına təqdim olunmuşdur.

Qanunvericiliyə uyğun olaraq 17 fevral 2026-ci il tarixdə Şura tərəfindən namizədlərlə söhbət və ixtisaslaşma aparılacaqdır.

Yeni qaydalara əsasən hakimliyə namizədlər hakim təyin olunduqdan dərhal sonra peşə hazırlığı məqsədilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında təşkil olunacaq təlimə cəlb ediləcəklər.

**Müsabiqədə uğur qazanmış hakimliyə namizədlərin**
**SİYAHISI**

**№ Soyadı, adı, atasının adı**

1. Abbaslı Əsgər Əbülfət oğlu
2. Abbasov Hüseyn Eldar oğlu
3. Aydəmirov Elməddin Şabəddin oğlu
4. Babayeva Nərgiz Səftər qızı
5. Bayramova Cahan Gəray qızı
6. Camalov Əli Elmar oğlu
7. Dünyamalılı İradə Şəms qızı
8. Əhmədova Əfsanə Əlövsət qızı
9. Əliyev Samir Sahib oğlu
10. Əliyev Səməd Eyyub oğlu
11. Göyüşova Günay Vidadi qızı
12. Qasımov Rüstəm Sabir oğlu
13. Qayıbov Aqşin Mehman oğlu
14. Qəniyev Sabir Ramazan oğlu
15. Qocayev Orxan Ələddin oğlu
16. Quliyev Emin Əliağa oğlu
17. Maqsudov İsa Sabir oğlu
18. Mehdiyeva Aysel İntiqam qızı
19. Məmişov Yasin Əhməd oğlu
20. Məmmədli Hacı Əliheydər oğlu
21. Məmmədova Aygün Fəhrad qızı

22. Nəsibov Elçin Aftandil oğlu

23. Raxtari Kamilə Səftər qızı

24. Rəhimova Aybəniz Məhəmməd qızı

25. Rzazadə Türkan Əvəz qızı

26. Salmanov Elnur Nizami oğlu

27. Salmanova Gülnaz Elçin qızı

28. Səfərova Aynur Elman qızı

29. Səmədzadə Firuzə Siyasət qızı

30. Təhməzli Nigar Natiq qızı

31. Türkmənli Lamiyə Elman qızı

32. Vəliyeva Günay Rahim qızı

33. Vəliyeva Səkinə Nail qızı

34. Yusifov Elnur Gündüz oğlu

# Almaniyada inzibati məhkəmələr üzrə təcrübə proqramı uğurla başa çatmışdır



Cari ilin 1–14 fevral tarixlərində Almaniya Federativ Respublikasının Vismar şəhərində Vismar Tətbiqi Elmlər Universitetinin nəzdində Şərq İnstitutu tərəfindən "İnzibati məhkəmə hakiminin iş metodları" mövzusunda inzibati məhkəmələr üzrə beynəlxalq təcrübə proqramı təşkil olunmuşdur.

Proqramda Azərbaycan Respublikasının Ali Məhkəməsi, Bakı və Sumqayıt Apellyasiya Məhkəmələri və Şəki İnzibati Məhkəməsinin hakimlərindən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Təcrübə proqramının əsas məqsədi inzibati hüquq və inzibati icraat sahəsində hakimlərin nəzəri biliklərinin dərinləşdirilməsi, praktiki bacarıqlarının təkmilləşdirilməsi, məhkəmə işlərinə baxılma prosesinin təşkili və icraatın aparılması mexanizmlərinin Almaniya təcrübəsi əsasında öyrənilməsi olmuşdur.

Proqram çərçivəsində iştirakçılar Almaniyanın inzibati məhkəmələrində keçirilən açıq məhkəmə iclaslarında iştirak etmiş, işlərə baxılma prosedurlarını yerində müşahidə etmiş, həmçinin institutun elmi və informasiya resurslarından istifadə edərək inzibati məhkəmə icraatı sahəsində aparılan tədqiqatlarla tanış olmuş, ekspertlərlə fikir mübadiləsi aparmışlar.

Qeyd olunan beynəlxalq təcrübə proqramında iştirak inzibati mübahisələrə baxılmanın keyfiyyətinin artırılması, məhkəmə fəaliyyətində müasir idarəetmə və iş metodlarının tətbiqinin genişləndirilməsi, eləcə də beynəlxalq hüquqi əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi baxımından mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.

# Məhkəmə-Hüquq Şurasının iclasında bir sıra məsələlər müzakirə edilib



2026-cı il fevralın 27-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

İclasda məhkəmə-hüquq sahəsində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə məlumat verilib. Həmçinin Azərbaycan Hakimlərinin II Forumu və Forum çərçivəsində keçirilmiş panel müzakirələrin, “Rəqəmsallaşma və süni intellektin tətbiqi” panelindəki mövzuların əhəmiyyəti və bu sahədə qarşıda duran hədəflər diqqətə çatdırılıb.

İclasda həmçinin Məhkəmə-Hüquq Şurasının Aparatı və işçi qrupları tərəfindən məhkəmə fəaliyyətinə dair hazırlanmış “Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti nəticəsində yaranan sənədlərin saxlanma müddətləri göstərilməklə sahə Siyahısı və onun tətbiq olunmasına dair Təlimat, “Azərbaycan Respublikasının məhkəmələrində monitorinqlərin aparılması qaydaları” və dövrün tələblərinə uyğun olaraq yenidən işlənilmiş “Hakimlərin Etik Davranış Kodeksi” layihəsi müzakirə edilib.

İclasda “Azərbaycan Respublikası apellyasiya, ağır cinayətlər, hərbi, inzibati və kommersiya məhkəmələrinin ərazi yurisdiksiyası”nda dəyişiklik edilməsi barədə qərar layihəsi təsdiq edilib. Bundan əlavə, gündəliyə uyğun olaraq, Hakimlərin Seçki Komitəsinə və Hakimlərin Qiymətləndirilməsi Komitəsinə üzvlər seçilib.

Daha sonra intizam icraatı üzrə işlərə baxılaraq müvafiq qərarlar qəbul edilib.

## Mülki işlər üzrə
## ★★★ statuslu qərar

**2[102]-2697/2025 xülasə**

**Mübahisəli hüquqi məsələnin qısa məzmunu:**

XDS İcraiyyə Komitəsinin 1989-cu il 27 aprel tarixli qərarı ilə cavabdehə ev tikmək üçün torpaq sahəsi verilmiş, lakin həmin torpaq sahəsi üzərində mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamışdır.
Cavabdeh ölkə xaricində olduğundan onun atası və bacısı torpaq sahəsini iddiaçının atasına satmış və bu barədə notarial qaydada təsdiqlənmiş akt tərtib olunmuşdur. Cavabdeh də öz növbəsində torpaq sahəsinin iddiaçının atasına satılmasına etiraz etmədiyi barədə yazılı razılıq vermişdir. Həmin vaxtdan etibarən torpaq sahəsi iddiaçının atasının, sonuncu vəfat edəndən sonra isə iddiaçının istifadəsində olmuşdur. Sonradan cavabdeh əqdin notariat qaydasında təsdiqlənməsindən boyun qaçırdığından iddiaçı torpaq sahəsinin alqı-satqısına dair müqavilənin bağlanmış hesab olunması barədə iddia qaldırmışdır.
Məhkəmələr iddia tələbini rədd edərkən, gəldikləri nəticəni onunla əsaslandırmışdır ki, cavabdeh tərəfindən verilmiş iltizamdakı iradə ifadəsi mübahisəli torpaq sahəsinə dair alqı-satqı müqaviləsinin zəruri şərtlərinə riayət edilməsi kimi qiymətləndirilə bilməz. Torpaq sahəsi səlahiyyətli dövlət orqanı tərəfindən cavabdehin istifadəsinə verilməsinə baxmayaraq, nə torpaq islahatı zamanı, nə də ondan sonra cavabdehin mülkiyyətinə verilməmiş və sonuncunun torpaq sahəsi üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınmamışdır. Mülkiyyət hüququnu iddiaçı tərəfə vermək üçün cavabdeh tərəfin həmin torpaq sahəsinə mülkiyyət hüququ olmamış və hal-hazırda da yoxdur.

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi:**

Ali Məhkəmə hesab etmişdir ki, iş üzrə təqdim olunmuş akt mahiyyətcə torpaq sahəsinin alqı-satqısı barədə bağlanmış müqavilə kimi qiymətləndirilə bilər. Aktda alqı-satqı münasibətlərinə xas olan əsas elementlər – əvəzli hüquq ötürülməsi, tərəflərin razılığı və öhdəliklərin müəyyən edilməsi aydın şəkildə ifadə olunmuşdur. Müqavilənin “akt” adlandırılması onun hüquqi mahiyyətini dəyişmir, çünki tərəflərin niyyəti və iradəsi torpağın alqı-satqısına yönəlmişdir. Həmçinin cavabdehin torpağın satılmasına dair yazılı razılığı və sonrakı 17 il ərzində etiraz etməməsi onun əqdi faktiki olaraq bəyəndiyini göstərir. Bu hal Mülki Məcəllənin 357-360-cı maddələrinə əsasən “bəyənmə” (sonradan verilmiş razılıq) kimi qiymətləndirilir və əqdi etibarlı saymaq üçün əsas yaradır.
Mülki Məcəllənin aktın imzalandığı vaxt qüvvədə olan 335.2-ci maddəsi üzrə əqdin etibarlı hesab edilməsi üçün formanın pozulması əks tərəfin təqsiri ucbatından baş verməli, əqd qanunazidd olmamalı və yazılı formada tərtib edilməlidir. İş materiallarından görünür ki, iddiaçı öhdəlikləri yerinə yetirmiş, cavabdeh isə notarial təsdiqdən yayınmışdır. Məhkəmə həmçinin müəyyən etmişdir ki, cavabdehin torpaq sahəsinə mülkiyyət hüququ tam qeydiyyata alınmasa da, XDS-nin 1989-cu il qərarı ona sahiblik və istifadə hüquqları vermişdir. Bu hüquqlar “dövriyyə qabiliyyətli əmlak hüquqları” hesab olunur və mülki dövriyyədə iştirak edə bilər.
Belə olan halda, tərəflər arasında bağlanmış əqd tamamilə etibarsız deyil, torpaq üzərində sahiblik və istifadə hüququnun ötürülməsi barədə hüquqi nəticə doğuran razılaşma kimi qiymətləndirilə bilər.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## Cinayət işləri üzrə ★★★ statuslu qərar

**1[102]-2010/2025 xülasə**

**Birinci instansiya məhkəməsinin mövqeyi:**
Birinci instansiya məhkəməsinin hökmünə əsasən, məhkum CM-in 314.2-ci maddəsi ilə təqsirli bilinərək 2 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, barəsində CM-in 70-ci maddəsi tətbiq edilməklə təyin olunmuş cəzası şərti olaraq tətbiq edilərək 2 il sınaq müddəti müəyyən edilmişdir.
İş üzrə verilmiş mülki iddia qismən təmin edilərək, sökülmüş Bakı şəhəri, Nərimanov rayonu, **** ünvanında yerləşən mərtəbəsi 1-ci mərtəbə olan 53,2 kv.m sahəsi olan qeyri-yaşayış sahəsinə görə eyni ölçüdə 1-ci mərtəbədə tam təmirli qeyri-yaşayış sahəsi və Bakı şəhəri, Nərimanov rayonu, **** ünvanında yerləşən sahəsi 56,7 kv.m olan mərtəbəsi zirzəmi kimi qeyd olunmuş qeyri-yaşayış sahəsinə görə mərtəbəsi zirzəmi olan eyni ölçüdə tam təmirli qeyri-yaşayış sahəsinin mülki iddiaçıya təhvil verilməsi, 30.09.2020-ci tarixdən başlayaraq qeyri-yaşayış sahələrinin yerləşdiyi binanın istismara təhvil verildiyi tarixə kimi hər ay 1.200 manat məbləğində icarə haqqının (əldən çıxmış fayda) hesablanıb mülki iddiaçıya ödənilməsi qərara alınmışdır.
Mülki iddiaçının nümayəndəsi hökmün mülki iddiaya dair hissəsinə izah verilməsi üçün birinci instansiya məhkəməsinə ərizə ilə müraciət etmişdir.
Birinci instansiya məhkəməsinin qərarı ilə hökmün mülki iddiaya dair hissəsinə izah verilməsi barədə mülki iddiaçının nümayəndəsinin ərizəsi təmin edilməmişdir.

**Apellyasiya instansiyası məhkəməsinin mövqeyi:**
Apellyasiya instansiyası məhkəməsinin qərarı ilə birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmış, zərərçəkmiş şəxsin (mülki iddiaçı) nümayəndəsi tərəfindən verilmiş apellyasiya şikayəti təmin olunmamışdır.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Zərərçəkmiş şəxsin nümayəndəsi tərəfindən verilmiş kassasiya şikayəti təmin edilmiş, apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilmiş və cinayət işi yeni apellyasiya baxışına təyin edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**
1. CPM-in 179-cu maddəsinə əsasən cinayət mühakimə icraatında mülki iddia bu Məcəllənin müddəaları ilə müəyyən edilmiş qaydalara əsasən verilir, sübut və həll olunur.
2. CPM-in 179.2-ci maddəsində qeyd edilmişdir ki, mülki prosessual qanunvericiliyin normaları cinayət mühakimə icraatının prinsiplərinə zidd olmadıqda və mülki iddia üzrə icraatda zəruri olan qaydalar bu Məcəllədə nəzərdə tutulmadıqda mülki prosessual qanunvericiliyin normalarının tətbiqinə yol verilir.
3. MPM-in 230.1-ci maddəsinə əsasən, işə baxmış hakim işdə iştirak edən şəxslərin ərizəsi əsasında ləğv edilməmiş qətnaməsini onun məzmununu dəyişdirmədən izah etməyə haqlıdır. Göründüyü kimi, qanunverici məhkəmə aktının izah edilməsi institutunu məhkəmə aktının məzmununa müdaxilə etmədən onun düzgün və vahid formada başa düşülməsini, habelə qanun tələblərinə uyğun şəkildə icrasını təmin edən hüquqi mexanizm kimi nəzərdə tutmuşdur.
4. CPM-də cinayət icraatı zamanı qəbul edilmiş məhkəmə aktlarının izah edilməsi ilə bağlı birbaşa norma nəzərdə tutulmamışdır. Lakin bu hal məhkəməni cinayət işi çərçivəsində baxılmış

mülki iddia üzrə qəbul edilmiş qərarın aydın və icra edilə bilən formada təmin edilməsindən azad etmir.

5. Kassasiya kollegiyası CPM-in 179.2-ci maddəsinin tələblərinə əsaslanaraq qeyd etmişdir ki, cinayət işi üzrə mülki iddia üzrə icraatın aparılması və onun həlli cinayət-prosessual qanunvericiliyin normaları ilə yanaşı, həm də mülki-prosessual qanunvericiliyin müvafiq normalarına uyğun həyata keçirilməlidir. Bu baxımdan, cinayət icraatı çərçivəsində qəbul edilmiş məhkəmə aktının mülki iddiaya aid hissəsində qeyri-müəyyənlik yarandıqda və ya həmin hissənin icrası zamanı çətinliklərin meydana çıxması ehtimalı olduqda, həmin qərarın izah edilməsi zərurəti ortaya çıxa bilər.

6. Belə olan halda, cinayət-prosessual qanunvericilikdə birbaşa norma mövcud olmasa da, məhkəmə aktının mülki iddiaya dair hissəsinin izah edilməsi MPM-in 230.1-ci maddəsində nəzərdə tutulmuş hüquqi mexanizm əsasında mümkün hesab edilməlidir.

7. Həmin norma işə baxmış məhkəməyə qəbul edilmiş və ləğv edilməmiş qətnamənin məzmununu dəyişdirmədən onun izahını vermək səlahiyyəti tanıyır. Bu yanaşma həm mülkiyyət hüququnun müdafiəsi, həm pozulmuş hüquqların real bərpası, həm də məhkəmə aktlarının icrasının effektivliyinin təmin edilməsi baxımından zəruridir.

8. Əks halda, mülki iddiaya dair qəbul edilmiş qərarın formal olaraq mövcud olması, lakin onun qeyri-müəyyən məzmunu səbəbindən icra olunmaması və ya natamam icrası zərərçəkmiş şəxsin hüquqlarının faktiki olaraq bərpa edilməməsi ilə nəticələnə bilər.

9. Bu səbəbdən kassasiya kollegiyası hesab etmişdir ki, birinci instansiya məhkəməsinin cinayət işi üzrə qəbul etdiyi hökmün mülki iddiaya dair hissəsinə izah verilməsi barədə ərizənin MPM-in 230.1-ci maddəsinə əsasən baxılması qanunvericiliyin tələblərinə zidd olmayıb, əksinə, məhkəmə müdafiəsinin səmərəliliyinə və hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə xidmət edir.

10. Ona görə də, kassasiya kollegiyası zərərçəkmiş şəxsin hazırkı cinayət işi üzrə birinci instansiya məhkəməsinin hökmünün onun tərəfindən verilmiş mülki iddianın təmin edilməsinə dair hissəsinə izah verilməsi barədə ərizə ilə müraciət etməsini qanuna uyğun hesab etmişdir.

11. Cinayət işinin materiallarından görünür ki, məhkumun törətdiyi cinayət əməlləri nəticəsində zərərçəkmiş şəxsə məxsus daşınmaz əmlak məhv edilmişdir. Həmçinin iş materiallarından görünür ki, zərərçəkmiş şəxs ona məxsus qeyri-yaşayış sahəsini icarəyə verməklə gəlir əldə etmişdir. Birinci instansiya məhkəməsinin hökmü ilə zərərçəkmişin mülki iddiası qismən təmin edilmiş, ona vurulmuş zərərin naturada ödənilməsi öhdəliyi "****" QSC-nin üzərinə qoyulmuşdur.

12. Kassasiya kollegiyası işin hallarını nəzərə alaraq hesab etmişdir ki, birinci instansiya məhkəməsinin hökmünün zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi ilə bağlı hissəsinə izah verilməsi barədə ərizənin verilməsi qanunvericiliyin tələblərinə tam uyğundur və bu ərizə formal xarakter daşımır.

13. Belə ki, hazırkı iş üzrə birinci instansiya məhkəməsi zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi barədə qərar qəbul etsə də, həmin qərarın icrası zamanı məhv edilmiş qeyri-yaşayış sahəsinin hansı keyfiyyət göstəricilərinə, funksional təyinatına və istifadə imkanlarına uyğun şəkildə bərpa edilməli olması məsələsi aydın şəkildə müəyyən edilməmişdir. Bu isə məhkəmə qərarının icrası mərhələsində ziddiyyətli yanaşmalara, habelə zərərçəkmiş şəxsin mülkiyyət hüququnun real bərpasının təmin olunmamasına səbəb ola bilər.

14. Hazırkı iş üzrə zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi barədə qərarın icrası zamanı qeyri-yaşayış sahəsinin funksional təyinatı, istifadə imkanları və iqtisadi dəyəri nəzərə alınmadan yalnız sahə ölçülərinə əsaslanılması, zərərçəkmiş şəxsin mülkiyyət hüququnun faktiki bərpasını təmin etmir.

15. Bu isə Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi ilə qorunan mülkiyyət hüququnun effektiv müdafiəsi prinsipi ilə uzlaşmır. Belə olan halda, birinci instansiya məhkəməsinin hökmünün zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsinə dair hissəsinə izah

verilməsi barədə ərizə, həm MPM-in 230.1-ci maddəsinin məqsədinə, həm də Avropa İnsan Hüquqları Məhkəməsinin formalaşdırdığı hüquqi yanaşmalara uyğun gəlir.

16. Məhkəmə tərəfindən "Ailə Park" QSC-nin üzərinə zərərçəkmiş şəxsə vurulmuş ziyanın naturada ödənilməsi barədə qəbul edilmiş qərar Mülki Məcəllənin 1115-ci maddəsinin tələblərinə uyğun icra edilməsi üçün izah edilməlidir.

17. Əks halda mülkiyyətin toxunulmazlığı, pozulmuş hüquqların bərpasının təmin edilməsi və mülki hüquqların məhkəmə müdafiəsi prinsipləri real hüquqi mexanizm kimi deyil, deklarativ xarakter daşıyacaq və nəticə etibarilə zərərçəkmiş şəxsin mülkiyyət hüququnun pozulmasına gətirib çıxaracaqdır.

18. Belə ki, qeyri-yaşayış sahəsinin keyfiyyəti və dəyəri ilk növbədə onun konkret təyinat üzrə istifadə üçün yararlı olub-olmaması ilə müəyyən edilir. Bu baxımdan, qeyri-yaşayış sahəsinin məhv edilməsi ilə əlaqədar vurulmuş maddi ziyanın naturada ödənilməsi barədə qərar qəbul edilərkən məhv edilmiş əmlakın yalnız sahə ölçülərindən çıxış edilməsi, onun funksional təyinatı və istifadə imkanları nəzərə alınmadan qiymətləndirilməsi Mülki Məcəllənin normalarının tələbləri ilə uzlaşmır.

19. Odur ki, kassasiya kollegiyası apellyasiya instansiyası məhkəməsinin qərarının zərərçəkmiş şəxsin nümayəndəsinin kassasiya şikayətinə münasibətdə ləğv edilməli və cinayət işi yeni apellyasiya baxışına təyin edilməli olması barədə nəticəyə gəlmişdir.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## İnzibati işlər üzrə ★★★ statuslu qərar

Azərbaycan Respublikası Prezidentinin 24.01.2017-ci il tarixli, 1207 nömrəli Fərmanı ilə gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitin 60 faizinin Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavə kimi ödənilməsi nəzərdə tutulmuşdur. Lakin "Əmək pensiyaları haqqında" Qanuna 30.11.2018-ci il tarixli Qanunla edilmiş dəyişiklik nəticəsində həmin Qanunun 1.0.5-ci maddəsində "digər əlavələrdən" sözlərindən sonra "(büdcədənkənar vəsaitlər hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla)" ifadəsi əlavə edilmişdir. Gömrük orqanlarında xidmət etmiş şəxs kimi iddiaçının pensiya hüququ 04.06.2021-ci il tarixdə yarandığından və bu tarixdə qeyd olunan dəyişiklik qüvvədə olduğundan, Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin, o cümlədən iddiaçının aylıq vəzifə maaşına əlavə kimi ödənilən vəsaitin 60 faizi ona pensiya təyin edilərkən nəzərə alınmamışdır.
Sonradan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.04.2022-ci il tarixli, 170 nömrəli qərarı ilə Nazirlər Kabinetinin 17.10.2017-ci il tarixli, 437 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydaları"na dəyişiklik edilmişdir. Həmin dəyişikliklə Qaydaların 1.3-cü bəndi yeni redaksiyada verilmiş və müəyyən edilmişdir ki, vəsaitin 60 faizi dövlət büdcəsinə köçürülür və bu vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavə kimi istifadə edilir. Beləliklə, edilən dəyişiklik nəticəsində gömrük orqanlarında çalışan xüsusi rütbəsi olan əməkdaşlara və mülki işçilərə ödənilən həmin əlavələr dövlət büdcəsi vəsaiti hesabına formalaşaraq təminat xərcliyinə daxil edilmiş və həmin tarixdən pensiya hesablanarkən nəzərə alınmağa başlanılmışdır.
İddiaçı müvafiq tələbində qeyd olunan normativ dəyişikliyin onun hüquqi vəziyyətini yaxşılaşdırdığına istinad edərək, büdcədənkənar vəsait hesabına ödənilmiş 60 faiz əlavələrin əmək pensiyasının yenidən hesablanması məqsədilə təminat xərcliyinə daxil edilməsi üçün yeni məlumat vərəqəsinin verilməsini xahiş etmişdir.
Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının (hakimlər: S.Kərimov /məruzəçi/, R.Nəbizadə və B.Məmmədli) 13.01.2026-cı il tarixli, 2-1(102)-2199/2025 nömrəli üç ulduzlu qərarındakı hüquqi mövqeyə əsasən, qanunvericilikdə edilən dəyişikliklər nəticəsində 01.01.2019-cu il tarixindən sonra və 01.07.2022-ci il tarixədək pensiya hüququ yaranmış şəxslər, o cümlədən iddiaçı bu hüquqdan məhrum edilib və onlar üçün qanunvericilikdə, xüsusən də, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nda dəyişiklik edilməsi barədə 21.04.2022-ci il tarixli, 170 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında hər hansı keçid müddəaları göstərilməyib.
Belə ki, sosial təminat hüququnun məhz Konstitusiyada təsbit olunmuş bir hüquq olması qanunvericinin mülahizə sərbəstliyinin də müəyyən məhdudiyyətlərə tabe olduğunu təsdiq edir. Qanunvericinin bu sahədə mülahizə sərbəstliyi hüquqi müəyyənlik prinsipini pozmamalı və müəyyənləşdirilən qaydalar aydın və birmənalı olmalıdır. Ona görə də, tənzimləmələr Konstitusiyada təsbit olunmuş bərabərlik hüququna, eləcə də normativ hüquqi aktların hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı olduğuna dair tələblərə uyğun həyata keçirilməlidir.
Bərabər yanaşma prinsipinin pozulduğunun iddia olunduğu hallarda iki komponentdən ibarət yoxlama sxemi tətbiq olunur. Birincisi, qeyri-bərabər davranışın müəyyən olunması və ikincisi, həmin qeyri-bərabər davranışın Konstitusiyanın 25-ci maddəsi baxımından əsaslı olması. Məhkəmənin qənaətinə görə 2-ci qrupa münasibətdə qeyri-bərabər davranışın mövcudluğu müəyyən olunur. Belə ki, hər iki qrup Gömrük Komitəsində xidmət edib, hər iki qrup həmin

əlavəni alıb, hər iki qrup aldığı əlavədən MDSS haqqını ödəyib. Lakin müqayisə olunan qruplardan birinə daxil olan və hüququ yaranmış əməkdaşlara pensiya təyini zamanı həmin əlavə nəzərə alındığı halda, digər qrupa münasibətdə nəzərə alınmır. Halbuki, qruplara daxil olan əməkdaşlar arasında qeyri-bərabər davranışa haqq qazandıran və belə davranışı şərtləndirən əhəmiyyətli fərqlər (xidmətlə, əlavənin və MDSS haqlarının ödənişi ilə bağlı) müəyyən olunmur. Konstitusion tələblər baxımından, fərqli tənzimləmə və qeyri-bərabər davranış üçün obyektiv səbəblər mövcud deyil. Nəzərə almaq lazımdır ki, qeyri-bərabər davranışa haqq qazandıran əsaslı səbəblərin mövcudluğu tələb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə əsasən normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə, o cümlədən bərabər mənafelərə bərabər münasibət prinsipinə əsaslanmalıdır. Həmin normada “hüquq” anlayışı yalnız qanunvericilik texnikasına uyğunluğu deyil, həm də hüquqi müəyyənlik və normativ sabitlik kimi prinsipləri əhatə edir. “Haqq-ədalət” anlayışı isə normativ hüquqi tənzimləmənin cəmiyyətin ümumi maraqları ilə fərdlərin qanuni gözləntiləri arasında ədalətli və mütənasib balans yaratmasını, eyni və ya oxşar hüquqi vəziyyətdə olan şəxslərin obyektiv və əsaslandırılmış səbəblər olmadan fərqli hüquqi rejimlərə və rəftara tabe edilməsinin yolverilməzliyini nəzərdə tutur.

Həmin normada təsbit edilmiş “bərabər mənafelərə bərabər münasibət” prinsipi mahiyyət etibarilə Konstitusiyanın 25-ci maddəsində nəzərdə tutulan bərabərlik hüququnun normativ hüquqi tənzimləmə sahəsində konkret təzahür formalarından biridir. Bu prinsip ondan ibarətdir ki, hüquqi baxımdan eyni və ya oxşar mənafelərə malik olan şəxslər normativ hüquqi aktların qəbulu və tətbiqi zamanı eyni hüquqi rejimə tabe edilməlidir, onlara münasibətdə fərqləndirmə yalnız obyektiv və ağlabatan əsaslara söykəndiyi hallarda yol verilən hesab oluna bilər. Həmin prinsip bərabərlik hüququnun xüsusi ifadəsi kimi çıxış edərək normativ hüquqi aktların məzmununun konstitusion nəzarətinin aparılmasında mühüm meyar rolunu oynayır. Belə ki, normativ tənzimləmə nəticəsində eyni mənafelərə malik şəxslər arasında əsassız fərqləndirmə yaradıldığı halda, bu hal təkcə bərabərlik hüququnun deyil, eyni zamanda hüquqi müəyyənlik və ədalətlilik tələblərinin də pozulmasına gətirib çıxarır.

Məhkəmə kollegiyası vurğulamışdır ki, Konstitusiyanın 149-cu maddəsinin mahiyyəti ondan ibarətdir ki, qanunverici və digər normayaratma subyektləri normativ hüquqi tənzimləmə apararkən eyni mənafelərə malik olan şəxsləri ağlabatan səbəblər olmadan fərqli hüquqi rejimlərə tabe edə bilməz, habelə hüquqların məhdudlaşdırılması və ya dəyişdirilməsi zamanı ardıcıl və məntiqi yanaşma sərgiləməlidir. Bu norma, eyni zamanda, normativ aktların tətbiqi nəticəsində yaranan əsassız normativ hüquqi boşluqların və qeyri-bərabərliyin qarşısının alınmasına xidmət edir. Hazırkı işə münasibətdə qeyd edilməlidir ki, bu konstitusion norma normativ hüquqi aktlarda dəyişikliklər edilməsi nəticəsində yaranan əsassız hüquqi fərqləndirmələrin, normativ boşluqların və hüquqi qeyri-bərabərliyin qarşısının alınmasına yönəlmiş təminat mexanizmi kimi çıxış edir. Belə ki, hüquqi tənzimləmənin bir sahəsində aparılan dəyişikliklərin digər əlaqəli sahələrdə eyni hüquqi vəziyyətdə olan subyektlər üçün uyğunsuz və ya diskriminativ nəticələr doğurması Konstitusiyanın 149-cu maddəsinin tələbləri ilə uzlaşmır. Bu baxımdan, qanunverici və digər normayaratma subyektləri normativ hüquqi aktların dəyişdirilməsi və tətbiqi zamanı hüquqi nəticələri bütöv şəkildə-vahid hüquqi konteksdə qiymətləndirməli, hüquqi ardıcıllığın və bərabərlik prinsipinin real və effektiv təmin olunmasını nəzərə almalıdır.

Məhkəmə kollegiyası hesab etmişdir ki, sözügedən dəyişiklikləri nəzərdə tutan qanun və qərarın hazırlanması zamanı irəli sürülən qanun və qərar layihələri, müzakirələr və əsaslandırmalar iş üçün son dərəcə əhəmiyyətlidir. Apellyasiya instansiya məhkəməsi tərəfindən büdcədənkənar vəsait hesabına ödənilən əlavələrin pensiya məbləğlərinin hesablanmasında nəzərə alınmasının 01.01.2019-cu il tarixdə ləğv olunması üçün qanunvericiliyə edilən təkliflərin və əsaslandırmaların nədən ibarət olması araşdırılmamışdır. Eyni zamanda, Nazirlər Kabinetinin 21.04.2022-ci il tarixli, 170 nömrəli qərarı ilə dolayı mexanizm vasitəsilə bu hüququn faktiki olaraq bərpa edilməsi – 2022-ci il iyulun 1-dən etibarən Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar

inkişaf fonduna daxil olan vəsaitlərin 60 (altmış) faizinin dövlət büdcəsinə köçürülməsi və həmin vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavə şəklində ödənilməsi və əmək pensiyasının hesablanmasında nəzərə alınması – üçün Nazirlər Kabinetinin hansı təkliflər və əsaslandırmaları əsas götürdüyü araşdırılmamışdır. Beləliklə, bu qanun və qərarların hazırlanması və qəbulu zamanı irəli sürülən qanun və qərar layihələri, müzakirələr və əsaslandırmalar iş üçün son dərəcə əhəmiyyətli olduğu üçün apellyasiya instansiyası məhkəməsi tərəfindən müvafiq sorğularla əldə edilib Konstitusiyasının 25-ci maddəsində nəzərdə tutulan bərabər yanaşma prinsipi baxımdan və Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə əsasən normativ hüquqi aktların hüquqa və haqq-ədalətə, o cümlədən bərabər mənafelərə bərabər münasibət prinsipi baxımından araşdırılmalı və qiymətləndirilməlidir.

Məhkəmə kollegiyası iddiaçıya qarşı fərqli rəftarı həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ baxımından da qiymətləndirərək qeyd etmişdir ki, hazırkı işdə iddiaçının pensiya hüququ qanunvericiliyin dəyişdirilməsi nəticəsində keçid və kompensasiya tədbirləri nəzərdə tutulmadan məhdudlaşdırılmışdır. Bu hal İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna əsasən, iddiaçının mülkiyyət hüququna müdaxilə kimi qiymətləndirilməlidir. Hazırkı iş üzrə normativ dəyişiklik nəticəsində iddiaçının üzərinə düşən yük şəxsi davranışları və ya fərdi vəziyyətindəki dəyişikliklərlə deyil, yalnız normativ tənzimləmənin müəyyən zaman kəsiyində tətbiq edilməməsi ilə bağlı olmuşdur. Beləliklə, iddiaçı özündən asılı olmayan səbəblərə görə pensiya kimi alacağı məbləğin bir hissəsindən məhrum edilmişdir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi öz presedent hüququnda vurğulamışdır ki, sosial təminat sahəsində dövlətin geniş mülahizə sərbəstliyi olsa da, əsassız olaraq normativ dəyişikliklər nəticəsində şəxslərin üzərinə fərdi və həddindən artıq yük qoyulması Konvensiyayanın 1 saylı Protokolunun 1-ci maddəsinə ziddir (Stefanetti və digərləri İtaliyaya qarşı, 21838/10 və digərləri, 15 aprel 2014, §§65-66).

Məhkəmə kollegiyası hesab etmişdir ki, normativ tənzimləmə nəticəsində iddiaçının üzərinə düşən yük qısa müddətli və ya müvəqqəti xarakter daşımamış, əksinə, onun sosial təminat sahəsində qanuni gözləntilərini ciddi şəkildə sarsıtmışdır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyinə görə, dövlət tərəfindən həyata keçirilən müdaxilə nəticəsində fərdi maraqlara həddindən artıq zərər vurulduqda, artıq ictimai maraqla fərdi maraqlar arasında ədalətli tarazlığın qorunduğundan danışmaq mümkün deyildir. Bu səbəblərə görə, hazırkı işdə iddiaçının pensiya hüququna münasibətdə tətbiq edilmiş normativ hüquqi tənzimləmə zərurət və proporsionallıq meyarlarına cavab verməzsə, ictimai maraqla fərdi maraqlar arasında ədalətli tarazlığı pozarsa, nəticə etibarilə, Avropa Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusuna səbəb ola bilər. Hazırkı işdə iddiaçı ilə eyni hüquqi rejimdə olan digər şəxslərlə müqayisədə ona münasibətdə fərqli rəftarın tətbiq edilməsinin obyektiv və ağlabatan səbəblərinin mövcudluğu, habelə bu fərqləndirmənin ictimai maraqların müdafiəsi baxımından zəruriliyi və proporsionallığı sübuta yetirilməmişdir. Bu mənada, fərqli rəftar faktiki bərabərsizliyin aradan qaldırılmasına deyil, Konvensiyanın 14-cü maddəsi ilə qadağan edilən ayrı-seçkilik nəticəsinin yaranmasına gətirib çıxara bilər.

Buna görə də, apellyasiya məhkəməsi tərəfindən qanunvericilikdəki dəyişiklikləri nəzərdə tutan qanun və qərarın hazırlanması zamanı irəli sürülən qanun və qərar layihələri, müzakirələr və əsaslandırmalar əldə edilməli və iş üzrə mübahisəli normativ hüquqi tənzimləmə və onun nəticəsində yaranmış fərqli rəftar 1 saylı Protokolun 1-ci maddəsi baxımından mülkiyyət hüququna müdaxilənin zəruriliyi və proporsionallığı, eləcə də Konvensiyanın 14-cü maddəsi baxımından obyektiv və ağlabatan səbəblərin mövcudluğu baxımından araşdırılmalı və qiymətləndirilməlidir. Xüsusilə, iddiaçının və bu kateqoriyaya aid şəxslərin 01.01.2019-cu il tarixindən 01.07.2022-ci il tarixədək bu hüquqdan məhrum edilməsinin hansı qanuni məqsədə xidmət etdiyi, niyə məhz bu zaman kəsiyinə aid şəxslərin daha ağır vəziyyətə salındığı və niyə onların hüquqlarının məhdudlaşdırıldığı araşdırılmalıdır.

Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən qərara gəlmişdir ki, hazırkı iş apellyasiya instansiyası məhkəməsinə təkrar baxışa göndərilməli, yuxarıda qeyd olunanlar nəzərə alınmaqla Konstitusiyasının 25-ci maddəsində nəzərdə tutulan bərabər yanaşma prinsipi, Konstitusiyanın 149-cu maddəsinin I hissəsində təsbit edilmiş haqq-ədalət, hüquqi ardıcıllıq və bərabər mənafelərə bərabər münasibət prinsipləri, eləcə də, Avropa İnsan Hüquqları Konvensiyanın 14-cü maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsi baxımından iş hərtərəfli araşdırılmalıdır. Belə ki, mübahisələndirilən normativ hüquqi tənzimləmələr üzrə aşağıdakı məsələlərlə bağlı kompleks araşdırmanın və qiymətləndirmənin aparılması tələb olunur: mübahisələndirilən normativ tənzimləmələr hansı məqsədlər üçün edilmişdir və onların həyata keçirilməsi ilə hansı nəticələrə nail olmaq hədəflənir; tənzimləmələrin edildiyi vaxt və şəraitlə bağlı nəzərə alınmalı olan xüsusi hallar varmı; tənzimləmələrin əmək pensiyası təminat sisteminə təsirini minimuma endirmək üçün hansısa tədbirlər, keçid müddəaları nəzərdə tutulmuş və həyata keçirilmişdirmi; tənzimləmələrlə əmək pensiyası alan şəxsləri və ya onların müəyyən qrupunu mütənasibliklə bağlı tələblər nəzərə alınmaqla qiymətləndirmə apardıqda onları əlverişsiz vəziyyətə məruz qoymuşdurmu və əgər məruz qoymuşdursa, hansı səbəblərlə əsaslandırılmışdır.
Məhkəmə kollegiyası hesab etmişdir ki, Dövlət Gömrük Komitəsi tərəfindən Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına təqdim edilmiş məlumat vərəqləri müvafiq sorğu əsasında əldə edilməli və qanunvericilikdə edilmiş dəyişikliklər nəticəsində həmin vərəqlərdə hansı məlumatların əks etdirildiyi ətraflı araşdırılmalıdır. Xüsusilə, sözügedən 60 faiz əlavə ödənişlərin (digər vəsaitlərin) məlumat vərəqlərində hansı formada göstərildiyi müəyyən edilməlidir. Bu baxımdan araşdırılmalıdır ki, 2019-cu il 1 iyul tarixinədək məlumat vərəqlərində həmin 60 faiz əlavələr necə göstərilmişdir; 2019-cu il 1 yanvar tarixindən 2022-ci il 1 iyul tarixinədək bu əlavələr ümumiyyətlə göstərilməmişdir, yoxsa göstərilmiş, lakin Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı tərəfindən əmək pensiyası hesablanarkən nəzərə alınmamışdır; eləcə də 2022-ci il 1 iyul tarixindən sonra həmin əlavələrin məlumat vərəqlərində hansı formada əks etdirildiyi aydınlaşdırılmalıdır.
Məhkəmə kollegiyası həmçinin hesab etmişdir ki, təkrar apellyasiya baxışı zamanı İnzibati Prosessual Məcəllənin 28.2-ci maddəsinə uyğun olaraq Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı zəruri cəlb etmə qaydasında üçüncü şəxs kimi hazırkı işdə icraata cəlb edilməlidir. Belə ki, məhkəmənin iddianı mümkün təmin etməsi halında bu vəziyyət yalnız cavabdehə münasibətdə müvafiq məlumat vərəqi vermək öhdəliyi yaratması ilə nəticələnməyəcək, həm də artıq məsələ məhkəmə qaydasında həllini tapdığı üçün üçüncü şəxsə də həmin məlumat vərəqi əsasında pensiya təyinatı aparmaq öhdəliyi yaradacaqdır. Odur ki, İnzibati Prosessual Məcəllənin 28.2-ci maddəsində təsbit olunmuş dispozisiya şərtləri ödənildiyi üçün zəruri cəlbetmə həyata keçirilməlidir. Təkrar baxışda həmçinin İnzibati Prosessual Məcəllənin 13-cü maddəsinə əsasən iddiaçıya iddia tələbinin dəqiqləşdirilməsi istiqamətində hüquqi yardım da göstərilməlidir. Məhkəmə, iddiaçının tələbində ümumən haqlı olduğu qənaətinə gələrsə, yeni məzmunda məlumat vərəqinin hansı tarixdən verilməli olduğu, eləcə də pensiyanın hansı tarixdən yenidən hesablanmalı olduğuna dair məsələləri də müzakirə etməlidir. Bu zaman həm qanunvericilikdəki dəyişikliklərin 2022-ci il 1 iyul tarixində qüvvəyə mindiyi, həm də əmək pensiyasının yenidən hesablanması ilə bağlı iddiaçının müraciət tarixi nəzərə alınmalıdır.

## Kommersiya işlər üzrə statuslu qərar

**2-2(102)-574/2025 xülasə**

İddiaçı cavabdehə qarşı maddi ziyanın ödənilməsi tələbi ilə məhkəməyə müraciət edərək, 2024-cü il 19 oktyabr tarixli yükdaşıma müqaviləsi üzrə cavabdehin öhdəliklərini icra etməməsi nəticəsində ona dəymiş 15.000 manat məbləğində maddi ziyanın və ödədiyi dövlət rüsumunun cavabdehdən tutularaq ödənilməsini xahiş etmişdir. İddia tələbi onunla əsaslandırılmışdır ki, iddiaçı yükdaşıma müqaviləsi üzrə üzərinə düşən öhdəlikləri tam və vaxtında yerinə yetirdiyi halda, cavabdeh müxtəlif bəhanələrlə müqavilə üzrə ödənişi həyata keçirməkdən yayınmışdır. Cavabdeh iddiaya etiraz edərək bildirmişdir ki, iddiaçının təqdim etdiyi sübutlarda mübahisəyə münasibətdə Türkiyə Respublikasının hüququnun tətbiq edilməsi və mübahisələrin İstanbul Məhkəmələri və İcra Dairələri tərəfindən baxılması barədə şərt nəzərdə tutulmuşdur. Bu səbəbdən mübahisəyə Azərbaycan məhkəmələrində baxılması mümkün deyildir. Birinci instansiya məhkəməsi həmin müqavilə şərtinə istinad edərək iş üzrə icraata xitam vermiş, apellyasiya instansiyası məhkəməsi isə bu mövqeyi dəyişdirmədən saxlamışdır.
Ali Məhkəmə apellyasiya instansiyası məhkəməsinin mövqeyini düzgün hesab etməmişdir. Məhkəmə kollegiyası qeyd etmişdir ki, MPM-in 261.0.1-ci maddəsində nəzərdə tutulan "işin məhkəmədə baxılmaması" əsası yalnız mübahisənin ümumiyyətlə məhkəmə qaydasında baxılmalı olmadığı və ya mülki məhkəmə icraatı qaydasında baxılmalı olmadığı hallara şamil edilə bilər. Hazırkı işdə isə iddiaçı Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxs, cavabdeh isə Azərbaycan Respublikasında təsis edilmiş kommersiya hüquqi şəxsdir və belə mübahisələrin həlli Azərbaycan Respublikasının məhkəmə yurisdiksiyasına aiddir. Məhkəmə kollegiyası vurğulamışdır ki, yalnız Azərbaycan Respublikası vətəndaşları və hüquqi şəxsləri arasında bağlanmış müqavilələrdə mübahisələrin xarici dövlətin məhkəmələrində baxılması barədə razılaşmanın etibarlı hesab edilməsi üçün MPM-in 450.2-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olmalıdır. Belə ki, tərəflərdən birinin xarici ölkədə yaşayış yeri, iş yeri və ya adətən olduğu yer olmadıqda, habelə beynəlxalq müqavilələrdə və ya konvensiyalarda bu cür razılaşmanı mümkün edən norma mövcud olmadıqda, müqavilədə nəzərdə tutulan xarici məhkəmə aidiyyəti etibarsız hesab edilir və Azərbaycan məhkəmələrinin yurisdiksiyasını istisna etmir. Bu baxımdan, apellyasiya instansiyası məhkəməsinin müqavilə şərtinə əsaslanaraq iş üzrə icraata xitam verilməsi barədə mövqeyi maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsi ilə qəbul edilmişdir. Nəticədə Ali Məhkəmə kassasiya şikayətini qismən təmin edərək apellyasiya instansiyası məhkəməsinin qərardadını ləğv etmiş və işin yenidən baxılması üçün həmin məhkəməyə göndərilməsinə qərar vermişdir.

# Qanunvericiliyə edilmiş dəyişikliklər

Hüquqi akta keçid

## 1. "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 336-VIIQD nömrəli Qanunu

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa edilən dəyişikliklər kommersiya hüquqi şəxsləri üzrə nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələr, nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi, yüklü edilməsi, təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən mirasın qorunması üçün tədbirlər çərçivəsində əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində bir subyektdən digər subyektə ötürülməsinə dair hüquqi əsasları müəyyən edir.
Digər dəyişiklik kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının öz təsis sənədlərində və qeydə alınmış faktlarda dəyişikliklər barədə hesabatının təqvim ili bitdikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim etməsini nəzərdə tutur. Bu dəyişikliklər təsis sənədlərində yenilənən hər hansı məlumatın hesabat formasında müvafiq orqana təqdim edilməsinin zəruriliyinə əsaslanır.
"Notariat haqqında" Azərbaycan Respublikası Qanununa edilən dəyişikliklər yuxarıda qeyd olunan bir sıra məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana ötürülməsini müəyyən edir.

Hüquqi akta keçid

## "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi – Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli Qanunu

"İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi – Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında qanun qəbul edilmişdir.
2025-ci il 25 oktyabr tarixdə Hanoy şəhərində imzalanmış Konvensiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, habelə ağır cinayətlərə dair sübutların elektron formada toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi çərçivənin formalaşdırılması, həmçinin kibercinayətkarlıqla mübarizə sahəsində anlayışların

vahid şəkildə müəyyən edilməsidir.
Konvensiya dövlət suverenliyinə, konstitusion prinsiplərə və insan hüquqlarına hörmət edilməsini təmin edən hüquqi balans mexanizmlərini nəzərdə tutur. Cinayət təqibi tədbirlərinin qanunçuluq, proporsionallıq və məhkəmə nəzarəti çərçivəsində həyata keçirilməsi Konvensiyanın əsas tələblərindən biridir. Konvensiya qarşılıqlı hüquqi yardım prosedurlarının sadələşdirilməsini və standartlaşdırılmasını təmin etməklə hüquq-mühafizə orqanları arasında əməkdaşlığı sürətləndirir, eyni zamanda institusional potensialın gücləndirilməsi ilə bağlı, ixtisaslaşdırma və təcrübə mübadiləsini təşviq edən mexanizmlər müəyyən edir.

Hüquqi akta keçid

### 3. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanunu

Dəyişiklik "Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya"sı tərəfindən 2025-ci il 19 fevral tarixdə təsdiq edilmiş "Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "İşçi qüvvəsi" indikatoru ilə bağlı "Əmək münasibətləri və məşğulluq sahəsində qanunvericilik islahatlarının aparılması" tədbirinin icrasını təmin etmək məqsədilə edilmişdir. Bu dəyişikliyə əsasən minimum əməkhaqqının məbləğinə ildə bir dəfədən az olmayaraq yenidən baxılacaq. Belə ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinə edilən dəyişikliklə 155-ci maddənin 6-cı hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilmişdir:
"Minimum əmək haqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılır.".

Hüquqi akta keçid

### 4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 18 fevral tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 18 fevral tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında Azərbaycan Respublikası Əmək Məcəlləsinin 144-cü maddəsinin 2 və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I və III hissələrinə, 71-ci maddəsinin II hissəsinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

№ 03/2026

Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının
Məhkəmə təcrübəsinin təhlili şöbəsi

# DÜNYADA HÜQUQ

Azərbaycan Respublikasının
Ali Məhkəməsi

# KONSTİTUSİYA, SEÇKİ VƏ HAKİMİYYƏT BÖLGÜSÜ

## 1. Qazaxıstanda yeni Konstitusiya üzrə referendum planlaşdırılır





Qazaxıstanda konstitusiya islahatları ilə bağlı referendumun 2026-cı il 15 mart tarixində keçirilməsi planlaşdırılır. Bu barədə prezident Kasım-Comart Tokayev müvafiq fərman imzalayıb. Məlumata görə, yeni konstitusiya layihəsi ölkənin siyasi sistemində geniş dəyişiklikləri nəzərdə tutur. Hakimiyyət bölgüsünün yenidən tənzimlənməsi və dövlət institutlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi əsas istiqamətlər kimi göstərilir. Prezident bildirib ki, mövcud konstitusiya artıq müasir çağırışlara tam cavab vermir və yenilənməyə ehtiyac var. Layihə referendum yolu ilə xalqın səsverməsinə çıxarılacaq.

Xəbərin əslinə keçid

## 2. İtaliyada seçki qanunvericiliyinin islahatı üzrə razılaşma əldə edilib



Xəbərin əslinə keçid

İtaliyada hakim sağçı koalisiya partiyaları seçki qanununda geniş islahat barədə razılığa gəliblər. Yeni təklif cari sistemdən imtina etməklə seçkiləri tam proporsional sistemə keçirməyi nəzərdə tutur. Bu sistem, səsvermədə 40%-dən çox səs alan koalisiyaya parlamentdə avtomatik çoxluq verilməsini də ehtiva edir. Rəqiblər isə bu dəyişikliyin 2027-ci ildə keçiriləcək seçkilərdə Baş nazir Giorgia Meloni üçün üstünlük yaratmaq məqsədi daşıdığını iddia edirlər. Yeni qanun layihəsi hələ parlamentin təsdiqini tələb edir. Bu təşəbbüs eyni zamanda martda keçiriləcək məhkəmə islahatı referendumu fonunda baş verir.

## 3. Polşa Prezidenti məhkəmə şurası islahatını veto edib

Polşa prezidenti Karol Navroçki hakimiyyətin məhkəmə sistemi islahatını nəzərdə tutan qanun layihəsinə veto qoyub. O, layihənin hakimlərin seçilməsi qaydasını dəyişdirməklə məhkəmələrdə xaos yarada biləcəyini iddia edib və bunu qəbul etməyib. Bu qərar ölkədə siyasi gərginliyi artırır, çünki layihə Baş nazir Donald Tuskun hökumətinin prioritetlərindən biri idi. Hökumət bu islahatla əvvəlki illərdə məhkəmələrə siyasi təsirin azaldılmasını hədəfləyirdi. Prezidentlə hökumət arasında mübahisələr Polşanın ədalət sistemindəki dəyişiklikləri ləngidir. Vetonun ardından tərəflər arasında qarşıdurma dərinləşib



Xəbərin əslinə keçid

## 4. ABŞ Ali Məhkəməsi qlobal tariflərlə bağlı işi rədd edib




ABŞ Ali Məhkəməsi prezident Donald Trump administrasiyasının qlobal tariflər tətbiq etmə təşəbbüsünü rədd edib. Məhkəmə qərarında bildirilib ki, belə genişmiqyaslı idxal rüsumlarının tətbiqi prezidentin deyil, Konqresin səlahiyyətlərinə daxildir. Tariflər milli iqtisadi təhlükəsizlik əsaslandırması ilə tətbiq edilmişdi, lakin Ali Məhkəmə bu arqumenti yetərli hesab etməyib. Qərar 6–3 səs çoxluğu ilə qəbul olunub və prezident səlahiyyətlərinin sərhədlərinə dair mühüm presedent kimi qiymətləndirilir. Trump isə qərarı tənqid edərək alternativ iqtisadi tədbirlər üzərində çalışacağını bildirib. Bu qərarın ABŞ-ın ticarət siyasətinə və beynəlxalq bazarlara təsir göstərəcəyi gözlənilir.

Xəbərin əslinə keçid

## 5. Moldova MDB-dən çıxışını açıqlayıb





Moldovan prezidenti Maia Sandu bildirib ki, ölkənin Müstəqil Dövlətlər Birliyindən (MDB) çıxması digər üzv dövlətlərlə iki tərəfli münasibətlərin kəsilməsi anlamına gəlmir. Sandu vurğulayıb ki, Moldova hələ MDB-də qaldığı müddətdə imzalanmış və vətəndaşlar üçün faydalı olan iki tərəfli müqavilələr saxlanacaq və bu əlaqələr dərinləşdirilə bilər. O qeyd edib ki, hökumət real əməkdaşlıq qurmaq istəyir, sadəcə formal əlaqələrə deyil. Moldova MDB-dən ayrılma prosesini aparır, lakin bu addım digər ölkələrlə dialoq və əməkdaşlığı bitirmir.

Xəbərin əslinə keçid

# CİNAYƏT HÜQUQU VƏ SİYASƏTİ

## 6. Əfqanıstanda yeni Cinayət Məcəlləsi beynəlxalq tənqidlərə səbəb olub



Əfqanıstanda Talibanın qəbul etdiyi yeni Cinayət Məcəlləsinə əsasən, ailədaxili münasibətlərdə kişinin "tərbiyə məqsədli" fiziki cəza tətbiq etməsi cinayət kimi ağırlaşdırılmır və bu hallarda məsuliyyət ya nəzərdə tutulmur, ya da çox yüngül sanksiyalarla məhdudlaşır. Qanunda qadının ərinin icazəsi olmadan evi tərk etməsi və ya bəzi ailə qərarlarına qarşı çıxması hüquqi məsuliyyətə səbəb ola bilər. Həmçinin, məişət zorakılığı anlayışı əvvəlki qanunvericiliklə müqayisədə daha dar çərçivədə müəyyənləşdirilir və qadınların müdafiə mexanizmləri zəifl ədilir. Qadınlara sığınacaq verilməsi və ya onların ailədən kənarda müstəqil yaşamasına yardım göstərilməsi də hüquqi risk yarada bilər.

Xəbərin əslinə keçid

## 7. Rusiyada üzərlik bitkisi qadağan olunmuş maddələr siyahısına daxil edilib



Rusiyada üzərlik (Peganum harmala) bitkisi psixotrop maddələr siyahısına əlavə olunub. Bitkinin tərkibində harmalin və harmin kimi alkaloidlər mövcuddur. Yeni qaydalara əsasən, bu bitkinin saxlanılması və ya daşınması cinayət məsuliyyəti yarada bilər. Xalq təbabətində istifadə olunsa da, hüquqi baxımdan qadağan edilmiş maddə kimi qiymətləndirilir. Bu dəyişiklik səfər edən şəxslər üçün də hüquqi risk yarada bilər.

Xəbərin əslinə keçid

## 8. Hindistanda "Delhi Excise Policy" işi üzrə məhkəmə prosesi davam edir

Hindistanda "Delhi Excise Policy" işi ətrafında hüquqi və siyasi mübarizə davam edir. İstintaq orqanları 2021–2022-ci illərdə paytaxtda tətbiq edilmiş alkoqol lisenziyalaşdırma siyasəti çərçivəsində müəyyən şirkətlərə qanunsuz üstünlüklər verildiyini və korrupsiya sxemlərinin mövcud olduğunu iddia edir. İş üzrə Delhi Baş naziri Arvind Kejriwal və Aam Aadmi Partiyasının bir sıra nümayəndələri istintaqa cəlb olunub. Müxalifət bunu korrupsiyaya qarşı mübarizə kimi təqdim etsə də, Kejriwal və tərəfdarları ittihamların siyasi motivli olduğunu bildirirlər. Məsələ məhkəmə instansiyalarında araşdırılır və ölkədə federal idarəetmə, siyasi məsuliyyət və hüququn aliliyi ilə bağlı geniş debatlara səbəb olub.



Xəbərin əslinə keçid

# 9. İndoneziyada yeni Cinayət Məcəlləsi qüvvəyə minib

İndoneziyada yeni Cinayət Məcəlləsi qüvvəyə minib və bununla ölkə müstəmləkə dövründən qalma köhnə cinayət qanunvericiliyini ləğv edib. Əvvəlki məcəllə Niderlandın İndoneziyanı idarə etdiyi dövrdə qəbul edilmişdi və illərlə tətbiq olunurdu. Yeni qanun hakimiyyət tərəfindən milli hüquq sisteminin yenilənməsi və müasirləşdirilməsi kimi təqdim edilir. Məcəllə bir sıra cinayətlərin tərifini və cəzalarını dəyişir. Bununla yanaşı, nikahdan kənar münasibətlər və dövlət qurumları ilə bağlı müddəalar ictimai müzakirələrə səbəb olub və insan hüquqları baxımından narahatlıqlar doğurub.



Xəbərin əslinə keçid

# 10. Arizona ştatında müdafiəçi və prokurorlar üçün təlim tələblərinin azaldılması təklif edilir

Arizona ştatında vəkil və prokurorlar üçün minimal təlim saatlarının azaldılması təklif olunub. Təklif hüquq sistemində kadr çatışmazlığını aradan qaldırmaq məqsədi daşıyır. Tənqidçilər isə bunun müdafiə hüququnun keyfiyyətinə təsir göstərə biləcəyini bildirirlər. Məsələ cinayət ədalət sisteminin effektivliyi və peşəkar standartlar baxımından müzakirə olunur. Qərar hələ yekunlaşdırılmayıb.



Xəbərin əslinə keçid

## 11. Venesuela parlamenti amnistiya qanununu qəbul edib



Venesuelanın Milli Assambleyası siyasi xarakterli işlər üzrə amnistiya qanununu yekdilliklə qəbul edib. Qanun müəyyən kateqoriyadan olan şəxslərin cinayət məsuliyyətindən azad edilməsini nəzərdə tutur. Hökumət bunu milli barışıq addımı kimi qiymətləndirir. Tənqidçilər isə seçmə yanaşma ehtimalını vurğulayırlar. Qanunun tətbiqi prosesi mərhələli şəkildə həyata keçiriləcək.

Xəbərin əslinə keçid

## 12. Bill Klinton Konqresdə Epşteyn işi üzrə ifadə verəcək

ABŞ-ın keçmiş prezidenti Bill Klintonun Konqresdə Ceffri Epşteyn işi ilə bağlı qapalı formatda ifadə verəcəyi bildirilib. Dinləmə Nümayəndələr Palatasının nəzarət və istintaq səlahiyyətləri çərçivəsində keçiriləcək. İstintaq Epşteynlə əlaqəli şəxslərin mümkün əlaqələri və faktiki halların aydınlaşdırılmasına yönəlib. Klinton daha əvvəl Epşteynlə əlaqələri barədə açıqlamalar versə də, bu ifadə Konqres səviyyəsində rəsmi prosedur çərçivəsində baş tutacaq.




Xəbərin əslinə keçid

# İNSAN HÜQUQLARI, İFADƏ AZADLIĞI VƏ DİN

## 13. İraqda 9 yaşında qızların evlənməsinə icazə verilən qanun qəbul edildi






2025-ci ilin yanvarında İraq parlamenti Şəxsi status haqqında qanuna dəyişiklik edib. Dəyişikliklər dini məhkəmələrə nikah, boşanma və qəyyumluq məsələlərində şəriət normalarını müstəqil tətbiq etmək imkanı verir. Əvvəl qüvvədə olan 1959-cu il dünyəvi qanuni nikah üçün minimal yaşı 18 olaraq müəyyən edirdi. Yeni sistemdə dini liderlərin mülahizəsi əsasında daha aşağı yaşda nikaha icazə verilməsi mümkün sayılır. Hüquq müdafiəçiləri bunu qadın hüquqlarının zəifləməsi kimi qiymətləndirir.

Xəbərin əslinə keçid

## 14. Honq Konqda milli təhlükəsizlik üzrə məhkəmə prosesi başlayıb



Xəbərin əslinə keçid

Honq Konqda 1989-cu il Tiananmen hadisələrinin anım mərasimlərini təşkil edən “Hong Kong Alliance” qrupunun üzvlərinə qarşı milli təhlükəsizlik qanunu əsasında məhkəmə prosesi başlayıb. Prokurorluq onları “xarici qüvvələrlə əməkdaşlıq” və dövlət təhlükəsizliyinə xələl gətirməkdə ittiham edir. İş 2020-ci ildə qəbul edilmiş Milli Təhlükəsizlik Qanununun tətbiqi praktikasının növbəti mərhələsi kimi qiymətləndirilir. Təqsirləndirilən şəxslər ittihamları rədd edir və fəaliyyətlərinin ifadə və toplaşma azadlığı çərçivəsində olduğunu bildirirlər. Hüquq müdafiə təşkilatları prosesi siyasi motivli hesab edir, rəsmi qurumlar isə qanunun ölkənin sabitliyinin qorunması üçün zəruri olduğunu vurğulayır.

## 15. Böyük Britaniyada ifadə azadlığı ilə bağlı məhkəmə qərarı müzakirə olunur




Xəbərin əslinə keçid

Böyük Britaniyada Ali Məhkəmə Hamit Coskunun Qurani yandırması ilə bağlı bəraət qərarını qüvvədə saxlayıb və prokurorluğun protestini rədd edib. Məhkəmə hesab edib ki, onun hərəkəti ifadə azadlığı çərçivəsində qiymətləndirilə bilər. Prokurorluq bunu ictimai asayişin pozulması kimi təqdim etsə də, hakimlər hökmün dəyişdirilməsi üçün əsas görməyiblər.

## 16. ABŞ-da uşaqlar üçün sosial media məhdudiyyətləri bloklanıb




ABŞ-ın Virciniya ştatında məhkəmə ştat səviyyəsində uşaqlar üçün sosial media istifadəsini məhdudlaşdıran qanunun icrasını müvəqqəti olaraq dayandırıb. Reuters-in xəbərinə görə, federal məhkəmə hakimi bu qərarı verərkən qeyd edib ki, belə məhdudiyyətlər ifadə azadlığı hüququna ciddi müdaxilə yarada bilər və qanunun konstitusiyaya uyğunluğu dərindən araşdırılmalıdır. Təklif olunmuş qanun 18 yaşdan kiçik şəxslərin sosial media istifadəsini vaxt və məzmun baxımından ciddi şəkildə məhdudlaşdırmağı nəzərdə tuturdu.

Xəbərin əslinə keçid

## 17. Myanmada Rohingya işi üzrə Beynəlxalq Ədalət Məhkəməsi prosesi davam edir

Beynəlxalq Ədalət Məhkəməsində Rohingya müsəlman azlığına qarşı soyqırım törədilməsi iddiaları üzrə iş davam edir. İddia 2019-cu ildə Qambiya tərəfindən qaldırılıb və Myanmanın 1948-ci il Soyqırım Konvensiyası üzrə öhdəliklərini pozduğu irəli sürülür. Məhkəmə 2020-ci ildə müvəqqəti tədbirlər tətbiq edərək Myanmadan Rohingya əhalisinin qorunması və mümkün sübutların saxlanılması üçün addımlar atmağı tələb etmişdi. İş fərdi şəxslərin deyil, dövlətin beynəlxalq hüquqi məsuliyyəti ilə bağlıdır. Hazırda məhkəmə tərəflərin təqdim etdiyi yazılı və şifahi arqumentləri qiymətləndirir, yekun qərar isə hələ elan olunmayıb.



Xəbərin əslinə keçid

# TEXNOLOGİYA Və HÜQUQ SİSTEMİNİN TRANSFORMASİYASI

## 18. İngiltərə və Uelsdə münsiflərsiz məhkəmə təklifləri müzakirə olunur

Böyük Britaniyada Crown Court işlərinin yığılması səbəbindən bəzi hallarda münsiflərsiz məhkəmə baxışının tətbiqi təklif olunur. Məqsəd məhkəmə yükünü azaltmaq və prosesləri sürətləndirməkdir. Hüquqşünaslar bunun ədalətli məhkəmə hüququna təsiri barədə mübahisə aparırlar. Hesabat sistemin struktur problemlərinə diqqət çəkir. Hökumət məsələni əlavə müzakirəyə çıxarıb.




Xəbərin əslinə keçid

## 19. Nyu-York məhkəmə sistemi süni intellekt istifadəsi üçün qaydalar müəyyən edib




Nyu-York məhkəmə sistemi hakimlər və əməkdaşlar tərəfindən süni intellekt alətlərinin istifadəsinə dair yeni qaydalar qəbul edib. Qaydalar şəffaflıq və etik standartların qorunmasını nəzərdə tutur. Sənəddə məhkəmə sənədlərinin hazırlanmasında Sİ istifadəsinə dair məhdudiyyətlər göstərilib. Məqsəd yanlış məlumat və plagiat riskinin qarşısını almaqdır. Bu addım texnologiyanın məhkəmə sistemində istifadəsinin tənzimlənməsi istiqamətində mühüm addım sayılır.

Xəbərin əslinə keçid

## 20. ABŞ-da bəzi hüquq fakültələri müraciətlərdə süni intellekt istifadəsini tələb edir

Bəzi ABŞ hüquq fakültələri qəbul esse-lərində süni intellektdən istifadəyə icazə verməklə yanaşı, bunu tələb etməyə başlayıb. Məqsəd namizədlərin texnologiya ilə işləmə bacarıqlarını qiymətləndirməkdir. Bu yanaşma hüquq təhsilində Sİ-nin inteqrasiyasının artdığını göstərir. Tənqidçilər isə akademik dürüstlük və bərabər imkanlar məsələsini gündəmə gətirirlər. Mövzu hüquq təhsili modelinin transformasiyası kontekstində müzakirə olunur.




Xəbərin əslinə keçid

## The Lotus Case (France v Turkey), 1927

1926-cı ildə açıq dənizdə Fransaya məxsus "Lotus" gəmisi ilə Türkiyəyə məxsus "Boz-Kurt" gəmisinin toqquşması nəticəsində bir neçə türk vətəndaşı həlak oldu. Hadisədən sonra "Lotus" gəmisinin fransız zabiti Türkiyəyə gəldikdə, Türkiyə hakimiyyət orqanları onu həbs edərək barəsində cinayət işi açdı. Fransa hökuməti buna etiraz edərək bildirdi ki, toqquşma açıq dənizdə baş verdiyinə görə yalnız gəminin bayraq dövləti – yəni Fransa – yurisdiksiya sahibidir. Türkiyə isə əksinə, nəticədə ölən şəxslərin onun vətəndaşları olduğunu əsas gətirərək cinayət təqibi aparmaq hüququnun mövcud olduğunu müdafiə etdi.

Mübahisə Daimi Beynəlxalq Ədalət Məhkəməsinə (Permanent Court of International Justice – PCIJ) çıxarıldı. Əsas hüquqi sual ondan ibarət idi ki, beynəlxalq hüquqda dövlətlər yalnız açıq şəkildə icazə verilmiş hallarda yurisdiksiya həyata keçirə bilər, yoxsa əksinə – açıq qadağa olmadığı müddətdə sərbəstdirlər? Fransa iddia edirdi ki, Türkiyənin belə səlahiyyəti yoxdur, çünki beynəlxalq hüquqda açıq dənizdə baş verən hadisələr üzrə yurisdiksiya bayraq dövlətinə məxsusdur. Türkiyə isə bildirdi ki, beynəlxalq hüquqda onun bu cür cinayət təqibi aparmasını qadağan edən norma yoxdur.

1927-ci ildə məhkəmə Türkiyənin xeyrinə qərar verdi. Qərarda qeyd olundu ki, beynəlxalq hüququn əsas prinsipi dövlətlərin suverenliyidir və dövlətlərə beynəlxalq hüquqla açıq şəkildə qadağan edilməyən hərəkətlər icazəlidir. Məhkəmə vurğuladı ki, Türkiyənin fransız zabiti mühakimə etməsi beynəlxalq hüququn pozuntusu hesab edilə bilməz, çünki belə bir yurisdiksiyanı qadağan edən norma mövcud deyil.
Bu qərar beynəlxalq ümumi hüquqda "Lotus prinsipi" kimi tanındı. Prinsipə görə, dövlətlər yalnız beynəlxalq hüquqla açıq şəkildə məhdudlaşdırıldıqları hallarda hərəkət azadlığını itirirlər; əks halda, onlar sərbəstdirlər.



**Qeyd edirik ki, bülletendə yer alan bütün məlumatlar açıq internet resurslarından götürülmüşdür. Məlumatların düzgünlüyü və aktuallığı üçün məsuliyyət həmin mənbələrə məxsusdur.*

**Əlavə məlumat və suallar üçün:**


Nilgün Məmmədova – **1830**

Bahar Oruclu – **1818**

*Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin təhlili şöbəsi*


# Faydalı keçidlər

1. UN News – https://news.un.org
2. Council of Europe Newsroom – https://www..int/en/web/portal/news
3. EU Law & Justice News – https://europa.eu/newsroom
4. OECD – https://oecd.org/newsroom
5. Avropa İnsan Hüquqları Məhkəməsi (ECHR HUDOC) – https://hudoc.echr.coe.int
6. Avropa Ədalət Məhkəməsi (ECJ/ CJEU) – https://curia.europa.eu
7. Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) – https://icj-cij.org
8. Transparency International – https://transparency.org
9. World Justice Project – https://worldjusticeproject.org
10. UNODC – https://unodc.org
11. Harvard Law Today – https://today.law.harvard.edu
12. Stanford Law and Technology Review - https://law.stanford.edu/stanford-technology-law-review-stlr/
13. The Guardian – Law section – https://theguardian.com/law
14. Law.com International– https://www.law.com/international
15. Reuters Legal – https://www.reuters.com/legal
16. Bloomberg Law – https://news.bloomberglaw.com
17. Financial Times – Law Section – https://www.ft.com/law
18. JURIST – https://www.jurist.org
19. Law360 – https://www.law360.com.
20. Global Arbitration Review (GAR) – https://globalarbitrationreview.com
21. The Lawyer – https://www.thelawyer.com
22. European Law Blog – https://europeanlawblog.eu
23. Euractiv – Justice & Home Affairs – https://www.euractiv.com/section/justice-home-affairs
24. ABA Journal (American Bar Association) – https://www.abajournal.com
25. International Association of Judges – https://www.iaj-uim.org/iuw/